# İLLƏR SONRAKI GÖRÜŞ VƏ YA PAYIZA BÜRÜNMÜŞ ŞEİRLƏR

## (Gənc şairə Xəyalə Sevilin şeirləri haqqında)



■ **Vaqif YUSİFLİ**
*filologiya elmləri doktoru*

***Anamın əlləri qocalır yaman***
***Əllərinə cavan qırışlar düşür.***
***Aybaay, günbəgün, saatbasaat***
***Cavanlığı barmağından sürüşür.***

***Anamın əlləri qocalır yaman,***
***Əllərinə illər ağrısı çökür.***
***Bizim qayğımızı, zəhmətimizi,***
***İndi də qocalmış əlləri çəkir.***

***Bu qocalmış əllər cavan əllərin,***
***Beşik yürgələyən xatirəsidi.***
***Anamın əlinə düşən qırışlar,***
***Onun taleyinin xəritəsidi.***

***Anamın əlləri qocalır yaman,***
***Ömrümü bu qoca əllərə yazın.***
***Ölsəm, ruhumu da yaşadar mənim***
***Qəbrimi anamın əlində qazın.***

Ana əllərinə kövrək bir duyğu ilə yazılan bu şeirin müəllifi cavan bir şairədir-ilk şeirlər kitabını oxuculara təqdim edən Xəyalə Sevil. Cəmi 300 nüsxə tirajla nəşr olunan bu kitabdan yəqin ki, çoxlarının xəbəri olmayacaq. Amma bu cavan şairənin istedadlı olduğunu mən bir professional oxucu kimi təsdiq edə bilərəm.

Ana əlləri haqqında yazılan bu şeiri həyəcansız oxumaq olmur. Anaya-o müqəddəs varlığa böyük məhəbbətin, heyranlıq hissinin ifadəsi kimi yüzlərlə şeir oxumuşuq. Xəyalə Sevil o məhəbbəti bir detalda ümumiləşdirir. O, anasının yaşa dolduğunu, daha cavan olmadığını məlum stereotip ifadələrlə söyləmir. Deyə bilərdi ki, anamın saçları ağarıb, başına qar yağıb. Deyə bilərdi ki, xəstəlik onu əldən salıb, yerişini itirib, gözləri zəifləyib. Amma bu məlum "təyinatdan", şablon təqdimatdan sərfnəzər edir, ana əllərini hədəf seçir. O şeirdə yavan-yalxı bir misra belə yoxdur. Ana əllərinə düşən qırışlar onun taleyinin xəritəsinə bənzədilir. Cavanlığının barmağından sürüşməsi də poetik tapıntıdır. Və sonda kövrəklik notu maksimum həddə çatır: "Ölsəm, ruhumu da yaşadar mənim, Qəbrimi anamın əlində qazın".

İndidən görünür ki, Xəyalə Sevil şeirdə fikirlə hissiyyatı bir-birinə qovuşdura bilir. Yəni şeirdə nə demək istəyirsə, onu obrazlı şəkildə təcəssüm etdirə bilir. Bu, ümumiyyətlə, şairliyin birinci əlamətidir. Həyatda, təbiətdə, gördüyümüz hər nəsnədə, predmetdə bizim görmədiyimiz mənalar varmış. Şairin şairliyi də elə bu mənalara baş vurmaqdır. Məsələn, Xəyalə Sevil payız fəslində bir ağacı seyr edir və həmin o ağacla payız arasında oxşar bir məna axtarır:

***Bu ağacın payız dərdi başlayıb,***
***Əlləri qoynunda fikirə gedir.***
***Yarpaqlar özünü atır budaqdan,***
***Yarpaqlar, elə bil, intihar edir.***

***Bu ağacın payız dərdi başlayıb,***
***Cılızlaşıb, soluxubdu bu ağac.***
***Bu ağac ki, yazda belə deyildi,***
***Dərd çəkməkdən sınıxıbdı bu ağac.***

***Bu ağacın payız dərdi başlayıb,***
***Yaz olaydım, dərdlərini alaydım.***
***Bu ağacın dərdi necə böyükmüş,***
***Mən də deyirdim ki, ağac olaydım.***

Payız fəsli hamımıza yaxşı tanışdır. Barlı-bəhərli fəsildir. Bütün fəsillərin (baharın, yayın, qışın) hərəsinin bir nişanəsi var payızda. Bir də görürsən ki, havalar isti keçir, sonra soyuyur, sonra yaz havasını duyursan. Amma payızın da özünəməxsus cizgiləri var: solğunluğu, xəzanlığı, yarpaq tökümü, küləyi, yağışı ...Xəyalə Sevil də payızın özünəməxsusluğunu o ağacda axtarır. Yarpaqların budaqdan qopub düşməsini onların intiharı hesab edir. Dərd çəkməkdən sınıxdığını deyir. Və sonda payız kövrəkliyi ilə bir ürəyin kövrəkliyini bir araya gətirir. Ağacın dərdini çəkir. Təsirlidir.

Şeirlərindən görünür ki, Xəyalə Sevil payızı çox sevir və kitabında beş şeir payızdandır. Amma hər şeirində fərqli ovqat hiss edirsən. Bu şeirlərin hamısı bir yerdə PAYIZ obrazını cizgilədə bilirmi? Yox! Sadəcə, bu, onun hisslərinin payızıdır, ürəyindəki payızdır. O, payızı sarı saçlarını çiyninə tökən gözəl bir qadına bənzədir. Maraqlı təşbihdir. Amma payızda həmişə bir solğunluq və ağlağanlıq axtarmaq yeknəsəklikdir.

Sevgi duyğularında da nomtalji hisslərin yaşantısını görürük.Xatirələr dilə gəlir. Etiraflar səslənir. "İllər sonrakı görüş" şeiri Xəyalənin bu mövzuda ən uğurlu şeiridir. Bir sevginin tarixi iyirmi misrada oxunur. İllər arxasından bu günə gəlib çatan budur ki:

***O illərin arxasınca,***
***Ayım gedir, ilim gedir.***
***Bu gün bizim toyumuzdu,***
***Göz yaşlarım gəlin gedir.***

Xəyalə Sevil şeirdə əhvalat danışmağa, nəyi isə nəql eləməyə meyl göstərir, amma bu meyl əhvalatçılığa aparıb çıxarmır, lirik planda həll olunur.. Yəni hansısa bir şeirinin konkret bir məzmunla bağlı olduğunu danmaq olmaz. Sadəcə, həmin məzmun şairənin poetik mülahizələrinə yardımçı olur. Məsələn, "Yetim qəbir" şeirində olduğu kimi...Məzmun bundan ibarətdir ki, bir balaca qız uşağını dəfn edirlər. Amma bu olay nakam, tamamlanmamış bir ömür haqqında düşüncələrə meydan açır.

***Torpağın üstündən boyu kəsilib,***
***Torpağın altından çıxacaq boyu.***
***Torpağın üstündən əli üzülüb,***
***Torpağın altında olacaq toyu.***

***Bu göydələn qəbirlərin***
***İçindəki kiçik qız,***
***Sən də yerdələn qəbirsən.***
***Sən bu yaşda o dünyanı, bu dünyanı,***
***Tanıyıb bilən qəbirsən.***

Şeirlərin əksəriyyətində bədii təzadlar işlənib və mən deyim ki, bunların içində uğurlu tapıntılar diqqəti cəlb edir. Ömrün təzadları, dünyanın təzadları, sevgidən yaranan təzadlar, hissin təzadları. "Yaman zildən sevirdim, Düşmüşəm bəmə bir az". "Ay üzümün qaralığı, Ay sevgimin ağlığı". "Kim deyir ki, bu dünyanın bir üzü var. Göy üzü var, Yer üzü var, Dünya iki üzlüdü". "Mənim ulduzum tək qaldı, Sənin ulduzun qoşadı". Bu təzadlar şeirin emosionallığını artırır.

Xəyalənin şeirlərində ayrı-ayrı obrazlar da diqqətdən yayınmır. PAYIZ obrazını yaratmağa meyl etdiyindən söz açdıq. Əgər belə demək mümkünsə, Xəyalənin bütün şeirləri payıza bürünüb. DAŞ obrazı var. O, bir şeirində deyir ki,qara günə atmaq üçün könlümüzdə daş saxlayaq. "Daş adamlar" şeirində isə bu obrazın mənfi çalarını rəsm edir:

***Daş adamlar,***
***Bumbuz, qarlı qış adamlar.***
***Üzü bəzək dünyamızın astarında***
***daş adamlar.***
***Budur mənim ömür yolum,***
***kəndarında daş adamlar.***

"Daş" şeirində isə deyir ki:

***Mən öləndə daş olacam,***
***Böyüyəcəm dərdim kimi.***
***Qəbrimdən daşlar doğacaq.***

Bu daş obrazına onun "Uşaqsız ana" və "Gülayə" şeirlərində də rast gəlirik. Bir bədbəxt qadın. Əri müharibədən qayıtmayıb. Onun dərdi böyükdür, uşağı da yox. Beləcə illər keçir və o uşaqsız qarı dünyadan köçür. Xəyalə Sevil bu qadının dərdini sanki öz içindən keçirir, maraqlı ştrixlərlə təqdim edir.

***Gözündəki yaşlar***
***Doğmadığı balasının yaşı ilə***
***Həmyaş idi.***
***Qəbrinə başdaş idi.***

"Gülayə" şeirində isə əri müharibədən qayıtmayan bir ananın-Gülayənin faciəsi ilə üzləşirik. Oğul böyüdür o və oğlunun boybuxununda görürdü əri qayıdıbö Amma bir gün "tay-tuş davasında öldürdülər Gülayənin oğlunu". Və:

***Xəbər tutdu Gülayə,***
***Ağlını oğlunun qəbri üstə atdı,***
***Ürəyini basdırdı Gülayə.***
***Ana ürəyi ilə yaşadı***
***Oğlunun yatdığı torpaq.***

Xəyalənin şeirlərinə iradım budur ki, işığı azdı, əksəriyyəti hüznlüdü. Həmişə dərddən, nisgildən yazmaq olmaz və yazırsansa da, o dərdin içində də işığa boylanmalısan. Qoy xanım yazarımız ağacların da dərdini çəksin, ayrılıqdan, hicrandan da söz açsın, uşaqsız anaların da kədərindən söz açsın, amma dərdin özünə də ürəyinin işığını qatsın. Dünya təzadlar içində çırpınsa da, işığı boldur....

Mən bu yeganə iradı istedadına qətiyyən şübhə etmədiyim Xəyalə Sevilə söyləyirəm.

Uğurlar...

